*Xalqımız 2020-ci il oktyabrın 20-də ordumuzun daha bir rəşadətli qəhrəmanlığının şahidi oldu. Həmin gün Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində Zəngilan şəhəri və rayonun daha 6 kəndinin - Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlının işğaldan azad olunduğunu bildirdi.*






# ZƏNGİLAN: müasir şəhər, aqrar rayon, “yaşıl enerji” diyarı

Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində Zəngilan rayonu 1993-cü il oktyabrın 29-da işğal edilərək vandallıqla tamamilə dağıdılmışdı. Ordumuzun yüksək döyüş rəşadəti sayəsində rayon azad edildi. Ordu bölmələrinin bu qələbəsi həm də ən uğurlu Arazboyu əməliyyatlardan biri oldu.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2020-ci il dekabrın 23-də işğaldan azad edilən Zəngilan rayonuna səfər etdilər. Ali Baş Komandan Zəngilan şəhərində şanlı Azərbaycan bayrağını ucaltdı.

Zəngilan rayonu 27 il düşmən tapdağında qalmaqla tam dağıdıldığından azad olunandan sonra minatəmizləmə əməliyyatları ilə yanaşı, paralel olaraq yenidənqurma və bərpa həyata keçirilməyə başlandı. Beləliklə də qısa vaxt ərzində rayonda qaynar həyat öz axarına düşdü. Qayıdış proqramı çərçivəsində doğma torpaqlarından didərgin düşmüş məcburi köçkünlərin işğaldan azad olunan ərazilərə ilk qayıdışı məhz bu rayondan başlandı.

## Regionda ilk "Ağıllı kənd" konsepsiyası

"Ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə keçmiş məcburi köçkünlərin ilk qayıdışı təmin olundu və xeyli müddətdir ki, onlar son dərəcə rahat evlərdə yaşayırlar. Sakinlərin əzəli və əbədi yurd yerlərinə köçürülməsinə 2022-ci ilin iyulundan başlanılıb və proses hazırda davam etdirilir.

"Ağıllı kənd" layihəsi dayanıqlı inkişafın təmin olunması məqsədilə sosial-iqtisadi xidmətlərin keyfiyyətinin, təhlükəsizliyinin, səmərəliliyinin artırılması, informasiya texnologiyalarının və innovasiyaların tətbiq edilməsi, habelə həmin xidmətlər üzrə mövcud resursların effektiv istifadəsi və idarə olunması üçün zəruri infrastruktura malikdir. Layihə çərçivəsində beynəlxalq təcrübəyə əsaslanaraq kənddə zəruri iqtisadi və sosial infrastruktur yaradılmışdır.

Ağalı kəndində "ağıllı kənd" layihəsinə uyğun olaraq yüksək keyfiyyətli ekoloji mühit əsas götürülmüş və enerjidən səmərəli istifadə edilməsi məqsədilə dayanıqlı enerji mənbələrinə üstünlük verilmişdir. İndiki və gələcək nəsillərin tələbatını dolğun ödəmək məqsədilə ekoloji baxımdan əlverişli olan "yaşıl" texnologiyalar tətbiq edilmişdir.

İsidilmə xərclərinin və istixana qazlarının emissiyasını azaltmaq məqsədilə evlərdə kombinə edilmiş istilik sistemi, odun və briket ilə işləyən mətbəx sobası quraşdırılıb.

Suyun isidilməsi üçün isə yaşayış evlərinin üzərində günəş kollektorları quraşdırılıb. Çirkab suların bioloji emal prosesi ilə təmizlənməsi sayəsində ildə 41.000 $m^3$ texniki su əldə ediləcəkdir.

"Ağıllı kənd"də evlərin xarici divarlarının tikintisində termobloklardan, tavan və döşəmələrinin tikintisində xüsusi izolyasiya materiallarından istifadə edilmişdir. İzolyasiyalı evlərin sayəsində istilik itkisi və enerji istehlakı əhəmiyyətli dərəcədə azaldılmışdır.

Kənddə yüksək sürətli internet şəbəkəsi mövcuddur.

Əhalinin sosial rifahının rahat və yüksək səviyyədə təmin edilməsi üçün informasiya-kommunikasiya texnologiyalarından maksimum istifadə edilmiş və Tele-səhiyyə, E-təhsil və digər elektron xidmətlər üzrə innovativ həllər tətbiq edilmişdir.

Prezident İlham Əliyev tərəfindən 2021-ci il aprelin 26-da Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edən birinci "Ağıllı kənd" layihəsinin təməli qoyulub. Bir ildən sonra isə mayın 27-də "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə keçirilən açılış mərasimində Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva iştirak ediblər.

## Zəngilan Konqres Mərkəzində beynəlxalq tədbirlər keçirilir

Dövlət başçısının iştirakı ilə ötən il sentyabrın 28-də istifadəyə verilən Zəngilan Konqres Mərkəzinin ərazisi 2,2 hektar olmaqla iki hissədən ibarətdir. Kompleksə daxil olan 600 yerlik korpusda ölkə və beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi üçün müasir standartlara uyğun şərait yaradılıb. Digər korpusda isə kiçik həcmli müxtəlif çoxfunksiyalı tədbirlərin keçirilməsi üçün zal, mətbəx və VIP otaqlar var.

Kompleksin ərazisində yaşıllıq zonaları, yerüstü parklanma sahəsi də mövcuddur. Mərkəzin binasının dam hissəsində günəş panelləri yerləşdirilib. Bu mərkəzdə ölkə və beynəlxalq əhəmiyyətli müxtəlif tədbirlər keçirilir.

Prezident İlham Əliyev ötən il sentyabrın 29-da BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşlığı ilə keçirilən "Şəhərsalma Həftəsi 2023" tədbirləri çərçivəsində Zəngilanda "Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi" mövzusunda 2-ci Milli Şəhərsalma Forumunun açılış mərasimində iştirak edib.






## İşğaldan azad edilən ərazilərdə silsilə su elektrik stansiyaları

Dövlət başçısı bu il mayın 18-də "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin "Zəngilan" və "Şayıflı" Su Elektrik stansiyalarının açılışlarını edib.

İşğaldan azad edilən ərazilərdə "yaşıl enerji" zonasının yaradılması məqsədilə rayonların karbonsuz zonaya çevrilməsi ilə bağlı Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq "AzərEnerji" ASC tərəfindən Oxçuçayın Zəngilan rayonunun ərazisindən keçən hissəsində hər birinin gücü 10,5 meqavat olmaqla dörd yerdə ümumi gücü 42 meqavat olan "Zəngilan" Su Elektrik stansiyaları silsiləsi layihələndirilərək qısa vaxt ərzində tikilib. İşğaldan azad edilən ərazilərdə ən böyük silsilə su elektrik stansiyası olan "Cahangirbəyli" SES 2023-cü ildə dövlət başçısının iştirakı ilə istismara verilib.

Qeyd edək ki, Araz çayının sol qolu olan rayon ərazisindən keçən Oxçuçay üzərində inşa edilən SES-ləri su ilə təmin etmək üçün dəniz səviyyəsindən 600 metr yüksəklikdə baş suqəbuledici qurğu tikilib. Çətin iqlim və sərt relyefli ərazidə yerləşməsinə baxmayaraq, burada böyük həcmli torpaqlama, betonlama və digər işlər həyata keçirilərək sıfırdan yeni SES-lər tikilib.







## Məscidin minbər və şəbəkə elementləri təbii ağacdan hazırlanıb

Zəngilanda yeni məscidin təməli şəhər işğaldan azad edildikdən sonra - 2021-ci il aprelin 26-da dövlət başçısı tərəfindən qoyulub. Məscidin tikintisini Heydər Əliyev Fondu "PAŞA Holdinq" MMC-nin dəstəyi ilə həyata keçirib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu il may ayının 18-də Zəngilan məscidinin açılışında iştirak ediblər.

Qeyd edək ki, konservasiya olunan tarixi məscidin yanında inşa olunan yeni məscid binası düzbucaqlı plan quruluşlu, iki minarəli layihələndirilib. Məscid binasında 220 və 100 nəfərlik ibadət zalları yaradılıb. Məscidin minarələri və günbəzi kaşı və kərpicdən yığılıb. İnteryerdə nəqqaşlıq işləri aparılıb, mehrab kaşıdan yığılmış nəbati naxışlarla işlənib. Minbər və şəbəkə elementləri təbii ağacdan hazırlanıb.

İşğal dövründə dağıdılmış Zəngilan şəhər məscidinin ərazisində isə açıq səma altında sərgi yaradılıb.

## Zəngilan Beynəlxalq Hava Limanı

Rayon ərazisində ilk dəfə olaraq inşa edilən Zəngilan Beynəlxalq Hava Limanının 2022-ci il oktyabrın 20-də keçirilən açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iştirak edib. Artıq Zəngilan aeroportuna Beynəlxalq Hava Limanı statusu verilib və xarici ölkələrə beynəlxalq uçuşlar həyata keçirilir. Onu da qeyd edək ki, bu Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonunda inşa edilən ilk, işğaldan azad olunan ərazilərdə isə ikinci hava limanıdır. Bundan əvvəl isə Füzuli Beynəlxalq Hava Limanı istifadəyə verilib.

Araz, Oxçuçay, Həkəri və Bəsitçay rayonun ərazisindən axan çaylarıdır. İlin bütün fəsillərində bolsulu olan çaylardan məişət və kənd təsərrüfatından başqa, müxtəlif sahələrdə də istifadə edilirdi. Rayonda tikinti daşı, əhəng xammalı, qızıl, qara mərmər kimi faydalı qazıntılar var.

Rayon iqtisadi və coğrafi nöqteyi-nəzərdən əlverişli potensiala malikdir. Hər iki tərəfdən müxtəlif ölkələrlə həmsərhəd olan rayon qərbdə dağlıq, şərqdə düzənlik əraziyə malikdir.

Zəngilan rayonu iki ölkə ilə qonşu dəhlizlərə malik olmaqla xarici ticarət üçün unikal imkanlara malikdir. Tranzit nöqteyi-nəzərdən rayonun xüsusi özəlliyi var ki, İran islam Respublikası ilə ticarət münasibətlərinin daha da inkişafına töhfə verə bilər.

## "Made in Qarabağ" etiketlərinin ilk nümunələri

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Zəngilan rayonunda "Dost Aqropark" ağıllı kənd təsərrüfatı kompleksinin birinci mərhələsinin açılışında iştirak ediblər.

Qeyd edək ki, layihənin birinci mərhələsində inzibati binalar, 5200 kvadratmetrlik qapalı, 113 min kvadratmetrlik açıq tipli heyvandarlıq kompleksləri, sosial obyektlər, kafe, kinoteatr, istirahət zonası, üzgüçülük hovuzu, xidməti heyətin yaşayışı üçün binalar tikilib. Kompleksə 3500 baş cins qaramal gətirilib və əkinçilik məhsullarının istehsalı həyata keçirilib.

Qardaş ölkələrin dövlət başçıları "Dost Aqropark"ın bölgəyə gətirdiyi, otlaqlarda bəslənərək yetişdirilən və kəsimi aparılmış heyvanlardan alınan ət məhsullarının paketlərinin üzərinə "Made in Qarabağ" etiketlərinin ilk nümunələrini vurublar.

"Dost Aqropark"ın növbəti mərhələləri üzrə işlər də sürətlə davam etdiriləcək. Layihənin bütün mərhələlərinin başa çatdırılması nəticəsində 6 min hektar sahədə bitki mənşəli istehsal və texnika sahələri yaradılacaq, 10 min baş cins heyvanın yetişdirilməsi üçün maldarlıq, eləcə də toxumçuluq və şitilçilik sahələri salınacaq. Bununla yanaşı, bütün bölgəyə hədəflənən inteqrasiya olunmuş ət emalı və qablaşdırma müəssisəsi qurulacaq, tutumu 100 min ton olan anbar inşa ediləcək. Kompleks, həmçinin bölgənin toxum, gübrə və kənd təsərrüfatı ləvazimatlarına tələbatını ödəyəcək. Qarabağda istehsal olunan məhsulların "Made in Qarabağ" brendi ilə dünya bazarına çıxarılması üçün "Aqro Market" də qurulacaq.



"Dost Aqropark" türk və azərbaycanlı sərmayədarlar tərəfindən Qarabağ və Şərqi Zəngəzur bölgələrində yaradılan ilk özəl kənd təsərrüfatı kompleksidir. Üç mərhələdə həyata keçirilən layihənin təməli 2021-ci il oktyabrın 26-da Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qoyulub. "Dost Aqropark"da birinci mərhələ üzrə görüləcək bütün işlər başa çatdırılıb.

Ağıllı kənd təsərrüfatı texnologiyalarının, sıfır tullantı, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinin tətbiq olunacağı "Dost Aqropark" ətraf mühitin və təbiətin mühafizəsi ilə yanaşı, halal qida prinsipi ilə fəaliyyət göstərəcək. Layihə tam başa çatdırıldıqda kompleksdə 500 nəfər işlə təmin olunacaq. Burada ekosistemin yaradılması üçün ümumilikdə 100 milyon ABŞ dolları dəyərində sərmayə qoyulacaq. Kompleks Azərbaycanın və Türkiyənin ərzaq təhlükəsizliyinə mühüm töhfə verəcək.

## Şəhərdə yolların ümumi uzunluğu 31 kilometr olacaq

Zəngilan şəhərində velosiped və piyada zolaqları yaradılacaq. Layihə üzrə şəhərdaxili yolların ümumi uzunluğu 31 kilometr olacaq. Layihənin birinci mərhələsində ümumilikdə 17,14 kilometr uzunluğunda yollar salınacaq. İki və dörd hərəkət zolaqlı bu yolların eni 18-34 metr olacaq. Yolboyu velosiped və piyada zolaqları yaradılacaq, yaşıllıqlar salınacaq.

Qeyd edək ki, Prezident İlham Əliyev mayın 18-də Zəngilan şəhərinin daxili yol-kommunikasiya şəbəkəsinin təməlini qoyub.

## “Kəndimizin təmiz havası və dupduru suyu ömrümüzü uzadır”

Zəngilan rayonu Ağalı kənd sakini, Şərqi Zəngəzur 1 saylı bərpa-tikinti idarəsinin baş mütəxəssisi **Minayə Mahmudova** rayona birincilər sırasında qayıdıb. Burada yaradılan şəraiti yüksək qiymətləndirərək deyir ki, Prezident İlham Əliyevin kəndimizdə gedən tikinti işləri ilə yerində tanışlığını izləyəndə keçirdiyim sevinc hissini sözlə ifadə etmək mümkün deyil. Böyük Qayıdışın Zəngilan rayonunun Ağalı kəndindən başlanmasını biləndə hamı kimi, mən də sevindiyimdən göz yaşımı saxlaya bilmədim. Çünki kəndimizin daşı, yolu, cığırı, çayı, ağacları, suyu kimi, havası da mənə doğma idi.

Yaşayış şəraitinə görə dünyada tanınan kəndimizdə yaşayan sakinlərlə mütəmadi söhbətlərimizdən bəlli olur ki, hər birimiz azad olunan torpaqlarımızda yaradılan hərtərəfli şəraitə görə dövlətin qayğısını yüksək dəyərləndiririk.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ilə kəndimizdə keçirilən görüşümüz isə bizə daha bir sevinc bəxş etdi. Şəxsən mən son dərəcə səmimi şəraitdə keçən bu görüşü ömrüm boyu unutmayacağam. Bizə bu sevinci yaşadan dövlət başçımıza kəndimizin sakinləri adından təşəkkür edirik. Zəngilan Şəhər Gününü isə qələbə sevinci ilə qeyd etdiyimizə görə hər birimiz qürurluyuq.

**Mikayıl NƏRİMANOĞLU,**
**"Respublika".**